DÖVLƏT VERGİ XİDMƏTİ

# Dövlət-özəl tərəfdaşlığı və ya elektrik enerjisinin satınalma müqavilələrinin üstünlükləri barədə bunları bilməlisiniz!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən 01.01.2025-ci il tarixdən etibarən**

“Dövlət-özəl tərəfdaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış dövlət-özəl tərəfdaşlığı və ya “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 30 ildən (tikinti dövrü də daxil olmaqla) çox olmayaraq bağlanılmış elektrik enerjisinin satınalma müqavilələri əsasında fərdi sahibkarlar və hüquqi şəxslər tərəfindən dövlətin satınalma öhdəliyi ilə bərpa olunan enerji mənbələrindən istifadə edilməklə **Azərbaycan Respublikasının Nazirlər Kabinetinin** müəyyən etdiyi məbləğdən aşağı olmayan elektrik enerjisinin istehsalı üçün nəzərdə tutulan layihələr üzrə

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

- əldə olunan gəlir hüquqi şəxslərin mənfəət vergisindən və fiziki şəxslərin **gəlir vergisindən azaddır.**
- elektrik enerjisi istehsalı layihələrinə münasibətdə Azərbaycan Respublikasının Energetika Nazirliyinin, digər layihələrə münasibətdə isə dövlət tərəfdaşı kimi müəyyən edilən dövlət orqanlarının (qurumların), habelə bələdiyyələrin və ya bələdiyyə müəssisələrinin təsdiqedici sənədi əsasında **texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı ƏDV-dən və gömrük rüsumlarından azad olunur.**
- istifadə olunan **əmlaka görə əmlak vergisi tutulmur.**
- istifadə olunan **torpaqlara görə torpaq vergisi tutulmur.**

**Gömrük Məcəlləsində edilmiş dəyişikliyə əsasən 01.01.2025-ci il tarixdən etibarən**

"Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış dövlət-özəl tərəfdaşlığı ilə müəyyən olunan müddətə, lakin 30 ildən (tikinti dövrü də daxil olmaqla) çox olmayaraq bağlanılmış müqavilə əsasında fəaliyyət göstərən fərdi sahibkarlar və hüquqi şəxslər tərəfindən müəyyən edilmiş dövlət tərəfdaşının təsdiqedici sənədi əsasında **texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı gömrük rüsumlarından azad edilir.**

BAKI — 2025